# Çağdaş poeziyada Ulu Öndər obrazının təcəssümünə dair
## *(Bir şairin yaradıcılığı əsasında)*

**Yaşar Qasımbəyli**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: yashargasimov@mail.ru

**Annotasiya**. Məqalədə yeni Azərbaycanın yaradıcısı, böyük dövlət xadimi Heydər Əliyev obrazının inikasından bəhs edilir. İstedadlı şair Akif Azalpın son 30 illik yaradıcılığında Azərbaycan xalqının öz müstəqilliyini və suverenliyini qoruması, eyni zamanda, Ulu Öndərin titanik fəaliyyəti və xidmətləri əsas mövzulardan biri olmuşdur. Xüsusən, Ulu Öndərin mübarizəsinin və həyat yolunun əsas mərhələləri həmişə görkəmli şairin diqqət mərkəzində dayanmışdır. Hələ 90-cı illərin əvvəllərində şeirimizdə rezonans doğurmuş "Xilaskar nidası" şeirindən başlanan yaradıcılıq axtarışları "Öndərnamə", "Zəfərnamə", "Hüma" silsilələrində uğurla davam etdirilmişdir. Şairin Ulu Öndər obrazının təcəssümü ilə bağlı bədii-estetik axtarışları bugün də coşğun ilhamla davam etdirilməkdədir.
**Açar sözlər:** Çağdaş poeziyada Ulu Öndər obrazı, Heydər Əliyev və yeni Azərbaycan, "Xilaskar nidası", "Dahinin doğuluşu", "Öndərnamə", "Zəfərnamə", "Hüma"

**Məqalə tarixçəsi:** göndərilib – 11.09.2023; qəbul edilib – 25.09.2023

# On the embodiment of the image of a great leader in contemporary poetry
## *(On the basis of the creative work of a poet)*

**Yashar Qasimbeyli**
Doctor of Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: yashargasimov@mail.ru

**Abstract**. The article talks about the embodiment of the image of the founder of new Azerbaijan, the great statesman Heydar Aliyev. The main topic of the article is the defense of the Azerbaijani people of their independence and sovereignty, as well as the merits of the great leader as a result of the titanic activity in the work of the talented poet Akif Azalp over the past 30 years. The famous poet especially focuses on the main stages of the struggle and pages of the life of the great leader. Creative searches since the beginning of the 90s in the poem "Voice of savior", which caused a resonance, successfully continued in the series "Ondernameh", "Zafarnameh", "Huma". The artistic and aesthetic search for the embodiment of the great leader continues today with great inspiration.
**Keywords**: The image of Great leader in contemporary poetry, Heydar Aliyev and the new Azerbaijan, "Voice of savior", "The birth of a genius", "Ondarnameh", "Zafarnameh", "Huma"

**Article history:** received – 11.09.2023; accepted − 25.09.2023

### Giriş / *Introduction*

Heydər Əliyevin dahi şəxsiyyəti, xilaskarlıq missiyası və quruculuq fəaliyyəti Azərbaycan xalqının və Azərbaycan dövlətçiliyinin tarixində elə silinməz izlər buraxmışdır ki, bu danılmaz xidmətlərin xalq həyatının güzgüsü sayılan bədii ədəbiyyatın üfüqlərində böyük əks-səda yaratması ta-

mamilə təbiidir. Əsla təsadüfi deyildir ki, müstəqillik dönəmində ədəbiyyatımızın ən yaşlı nəslinin görkəmli simalarından tutmuş ən gənc nəslinin istedadlı nümayəndələrinə qədər yüzlərlə şair və nasir, dramaturq və publisist Ulu Öndərin möhtəşəm bədii obrazını yaratmaq yolunda müxtəlif janrlarda çoxsaylı bədii uğurlara nail olmuşlar. Üstəlik, o da diqqətəlayiqdir ki, hər bir ədəbi nəsil sözügedən mötəbər mövzuda öz bədii potensialını özünəməxsus şəkildə üzə çıxarmışdır.

**Əsas hissə / *Main part***

Mənsub olduğu ədəbi nəslin, heç şübhəsiz, istedadlı və öncül nümayəndələrindən biri olan Akif Azalpa gəlsək, o, 70-ci illərdə dövlət xətti ilə Özbəkistana göndərildiyi və uzun illər qardaş diyarda yaşayıb-yaratdığı üçün həmin illərdə yazılmış şeirləri ilə Azərbaycan oxucusunun görüşünə bir qədər geciksə də, bu örnəklər öz vaxtında müxtəlif tədbirlərdə və məclislərdə oxuna-oxuna Azərbaycan-Özbəkistan dostluğunun Heydər Əliyev tərəfindən əsası qoyulmuş bugünkü yeni və yüksək mərhələsinin saysız uğurlarının tərənnümündə və təbliğində öz rolunu oynamışdır.

Beləliklə, Akif Azalpın son on beş ildə Azərbaycan dövri mətbuatında (“Ədalət”, “Şərq”, “Zaman”, “Naxçıvan”, “Türk dünyası ağsaqqalları”, “Müəllim sözü”, “Kredo”, “XXI əsr”, “Azərbaycan ordusu”, “Olimpiya dünyası”, “Mədəniyyət/Culture” və s.), eləcə də internet qaynaqlarında (“Youtube”, “Kulis.az” və s.) yayımlanmış və dərin vətənpərvərlik ruhu ilə yoğrulmuş yüzlərlə şeirləri onun yaradıcılığında Heydər Əliyev obrazının özünəməxsus və parlaq təcəssümü haqqında ətraflı mülahizə yürütməyi tələb edir. Bu baxımdan təxminən bir il əvvəl tanınmış şairin “Ədəbiyyat qəzeti”ndə (28 may 2022-ci il, səh.22-23) dərc olunmuş “İstiqlalnamə” trilogiyasından (“Öndərnamə”, “Zəfərnamə”, “Hüma” silsilələrindən) poetik örnəkləri xüsusilə diqqətəlayiqdir.

Götürək elə sərlövhəsindən tutmuş sonuncu misrasına qədər oxucuda böyük maraq və dərin həyəcan doğuran “Xilaskar nidası” şeirini. Müəllif bu şeirini öz lirik qəhrəmanının dilindən bir monoloq kimi və epiqraf yerinə “Ümummilli Lider Heydər Əliyevin 1990-cı ilin yanvarında sabiq SSRİ paytaxtındakı məşhur bəyanatı əsasında” sözləri ilə təqdim edir:

*Xalqımın göyləri tutan fəğanı*
*Ağır illərimin acısı oldu.*
*Bakıdan birinci şəhidin qanı*
*Səbrimin sonuncu damcısı oldu.*

*Əlvida, yolunu azan səltənət,*
*Nahaq qan içində üzən səltənət!*

Amma istər birinci bəndin, istər şeir boyunca bütün bəndlərin bağlama misralarından göründüyü kimi, şair Heydər Əliyevi yalnız öz şeirinin lirik qəhrəmanı kimi deyil, həm də Azərbaycan xalqının həqiqi milli qəhrəmanı kimi tərənnüm edir. Doğrudan da, 1990-cı ilin 21 yanvarında Ümummilli Liderin Moskvada Azərbaycanın daimi nümayəndəliyində öz doğma xalqının harayına səs verməsi və sabiq imperiyanın paytaxtından durub, onun Bakı qırğını kimi qanlı cinayətini bütün dünyaya car çəkməsi, hər şeydən öncə, misilsiz qəhrəmanlıq nümunəsi idi. Burada həmin bəyanatın canlı şahidi kimi Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibəti ilə Azərbaycan xalqına müraciətindəki (10 may 2023-cü il) son dərəcə qiymətli bir müşahidəsini xatırlatmaq yerinə düşərdi:

*“Bu tairixi çıxışdan sonra, – çünki Sovet İttifaqının dağılmasına hələ iki ilə yaxın bir vaxt var idi, heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı iki ildən sonra dağılacaq, yəni, bu bəyanat böyük cəsarət tələb edirdi, əsl vətənpərvərlik tələb edirdi, – təbii ki, bu bəyanatdan sonra Sovet İttifaqının repressiv maşını Heydər Əliyevə qarşı geniş hücuma keçmişdir və onun Moskvada qalması artıq mümkün deyildi”* [1].

“Xilaskar nidası” şeirinin ikinci bəndindən etibarən şair öz lirik qəhrəmanının daxili aləminə və könül dünyasına daha inamla üz tutaraq, ən təsirli xatirələrlə onun erkən gəncliyindəki və tələbə-

lik illərindəki sirli yaşantılarını diqqət mərkəzinə çəkir. Uzun müddət sədaqətlə xidmət etdiyi bir dövlətlə vidalaşma anlarında lirik qəhrəmanının, xüsusən, bu təlatümlü yaşantıları tamamilə təbii duyulur və həssas oxucu qəlbində dərin təəssürat yaradır:

*Anlatmışdı bir vaxt şeytanlığını*
*Minlərlə nərlərə qurduğun tələ.*
*Gəncliyimdən sənin zindanlığını*
*Hamleti oynarkən sezmişdim hələ!*

*Əlvida, yolunu azan səltənət,*
*Mərdlərinə zəhər süzən səltənət!* [2]

Heydər Əliyevin öz amalı və idealı yolunda sonsuz mətanəti və dəmir iradəsinin əsas mənbəyi və səbəbinə isə şeirin növbəti bəndində aydınlıq gətirilir və bu səbəbin birbaşa lirik qəhrəmanın mənsub olduğu doğma xalqın və yurdun ağır taleyi ilə qırılmaz əlaqəsi vurğulanır:

*Yalnız sığınıb bir yurd muradına,*
*Can atdım üzünü ağ etmək üçün.*
*Azadlıq eşqinə çatıb dadına,*
*Elimin bəxtinə bir yetmək üçün!*

*Əlvida, yolunu azan səltənət,*
*İçdiyi andları pozan səltənət!*

Şeirin dördüncü bəndindən etibarən lirik qəhrəman qəlbinin təlatümləri oxucu nəzərində artıq fırtına effekti yaratmağa başlayır və yaşantının batini dramatizmini getdikcə gücləndirir:

*Heyhat, sınaqlara gərdikcə sinə,*
*Səngimək bilmədi böhtan daşların.*
*Aldanmış qəlblərin son ümidinə,*
*Son qoydu yelbeyin keçəl başların!*

*Əlvida, yolunu azan səltənət,*
*Yalanı gerçəyə yozan səltənət!* [2]

Göründüyü kimi, bu bənddə şair daha bir özünəməxsus məharət nümayiş etdirərək, vur-tut bir neçə misrada bədnam Qorbaçov başda olmaqla, öz qanlı əməlləri ilə dinc cəmiyyətə xəyanət edən və insanlığı fəlakətə sürükləyən "yelbeyin keçəl başların" uğurlu poetik karikaturasına nail ola bilmişdir!

Lirik konfliktin kulminasiya nöqtəsi isə fikrimizcə, şeirin beşinci bəndində üzə çıxır. Amma burada bir məqama aydınlıq gətirməyə xüsusi ehtiyac duyulur. Hamımıza yaxşı məlumdur ki, Heydər Əliyevin uzun müddət üzvü olduğu partiyanın sıralarını rəsmən tərk etməsi bir qədər sonra Naxçıvanda baş vermişdir. Bu faktın lirik qəhrəman dilindən 1990-cı ilin Moskva bəyanatı zamanı səslənməsi ilk baxışdan oxucuya bir qədər qəribə gələ bilər. Ancaq, bir tərəfdən, klassik estetikada belə zaman fərqliliyinin bədii xarakter məntiqindən irəli gələn və özünü doğruldan "zəruri anaxronizm" (Hegel) kimi qəbul edildiyini, digər tərəfdən, poetik məntiq və lirik yaşantı müstəvisində həmin istəyin ilk əsintisinin tüğyanlı lirik qəhrəman qəlbində məhz Moskva bəyanatı əsnasında doğulduğunu nəzərə alsaq, şeirdəki bütün bədii cizgilərin yerli-yerində olduğu daha da aydınlaşır:

*Gözümə görünər nə xof, nə hədə,*
*Nə şöhrət, nə mənsəb, nə də kabinet.*

*Daha yerim yoxdur belə firqədə,*
*Al başına dəysin, bu da partbilet!*

*Əlvida, yolunu azan səltənət,*
*Öz qəbrini özü qazan səltənət!* [2]

Lirik konfliktin düyünü qəhrəmanın yeganə sığınacaq yeri kimi öz doğma yuvasına üz tutması ilə şeirin sonuncu bəndində açılır və şair lirik qəhrəman dilindən "Əcəlin Qafqazdan gəzən səltənət!" misrası ilə sabiq imperiyanın dağılmasının əsas səbəblərindən biri də məhz Bakı qırğını olduğuna oxucunu inandırır:

*Artıq yollarımız başqa-başqadır,*
*Sən biryolluq uydun şərə, şeytana.*
*Məni isə məslək eşqim aparır*
*Son sığınacağım Azərbaycana!*

*Əlvida, yolunu azan səltənət,*
*Əcəlin Qafqazdan gəzən səltənət!* [2]

Bizim "Xilaskar nidası" şeirinin hər bəndi üzərində ayrıca dayanmağımızın səbəbi var. Əslində bu şeiri bütün poetik vasitələri və cizgiləri ilə sözbəsöz kontekstual təhlilə cəlb etsən, ciddi və geniş çaplı bir tədqiqatın ərsəyə gələcəyi şübhəsizdir. Bizim gəldiyimiz son qənaət isə ondan ibarətdir ki, Akif Azalpın "Xilaskar nidası" şeiri öz orijinal forması və dərin məzmunu ilə yalnız həmin mövzuda yaranmış vətəndaşlıq lirikasının deyil, bütövlükdə 90-cı illər Azərbaycan poeziyasının ən gözəl nümunələrindən biridir.

Şair yaradıcılığında Heydər Əliyev obrazını canlandıran belə siqlətli örnəklər arasında onun "10 may" (yaxud "Dahinin doğuluşu") şeiri də özünəməxsus yer tutur. Əgər birinci şeirin bədii uğurunu təmin edən vasitələrdən biri onun məharətlə tapılmış bənd bağlaması idisə, bu şeirdə həmin funksiya şeir boyu müxtəlif variantlarda yeddi dəfə vurğulanan bənd açılımı ("...əsr 23 yaşında idi...") üzərinə yüklənir və yetmiş misradan ibarət həcmli şeir bədii mündəricə baxımından hardasa yığcam poema təsiri də bağışlayır.

Ən başlıcası, şeiri əvvəldən axıra qədər müşayiət edən bu bənd açılımları hər dəfə səsləndikcə həssas oxucu təsəvvüründə fövqəlbəşərə və dahiyə möhtac 23 yaşlı XX əsrin əsas gözləntisinə, gələcək dünya siyasəti və diplomatiyasının korifeylərindən birinin – Azərbaycan dahisinin doğuluşuna real tarixi məna ilə birgə, sirli-ilahi çalar da bəxş edir.

Bu mənada qeyri-ixtiyari olaraq Ulu Öndərin ən yaxın silahdaş və məsləkdaşlarından biri olan möhtərəm Mehriban xanım Əliyevanın mətləbə birbaşa əlaqədar dərin və siqlətli bir kəlamı yada düşür: *"Azərbaycan üçün Heydər Əliyevin varlığı taleyin Tanrı payıdır".*

Akif Azalp "Dahinin doğuluşu" şeirinin formasından tutmuş ahənginə qədər bütöv bədii mündəricəsinə məhz bu hikmətli deyimin mənasını və miqyasını hopdurmağa can atıb. Buna şahid olmaq üçün şeirin ixtisarsız tam mətninin ("Naxçıvan" qəzeti, 9 may, 2009-cu il, səh.5) bir sıra səciyyəvi misralarına dərindən diqqət yetirmək kifayətdir. Burada, xüsusən, müəllifin istedadı və məharəti ilə bir sırada, dövrün romanlara sığmayan mənzərəsi və səciyyəsini cəmi bir neçə bənddə əks etdirmək baxımından poeziyanın sonsuz imkanları və ecazkar qüdrətinə heyran olmamaq mümkün deyil:

*Çılğın XX əsr 23 yaşında idi,*
*Tufanlardan qurtulmaq əzmi başında idi!..*
*Milyonlar təngə gəlib çalın-çarpaz dağlardan,*
*Zülmün taxtına lənət, nifrətlər ələyirdi.*
*Sığındığı küncərdə lal "qara"lar "ağ"lardan,*

*“Ağ”lar “qırmızı”lardan bir imdad diləyirdi!..*

*Qanlı-qadalı əsr 23 yaşında idi,*
*Bəlalardan qurtulmaq əhdi başında idi!..*
*Avropanın qərbində mürgülü vulkanlardan*
*Faşizm dəhşətinin hənirtisi gəlirdi.*
*Avropanın şərqində qan-qırmızı danlardan*
*Kommunist erasının marşları yüksəlirdi...*

*Başı bəlalı əsr 23 yaşında idi,*
*Qadalardan qurtulmaq cəhdi başında idi!..*
*Böyük Turan ən ağır günlərin yaşayırdı.*
*Qafqazda, Türküstanda müstəqil dövlətləri*
*Beşikdə boğan gücün öz dövrü başlayırdı,*
*Bir bayrağın altına çəkərək millətləri...*
*Təkcə Türkiyə şərin tilsimin sındıraraq,*
*Qurtuluş savaşında qulluğu unutmuşdu.*
*Neçə-neçə nəhəngin pəncəsini qıraraq,*
*Atatürkün ardınca zəfərə üz tutmuşdu...* [3]

Şair 1923-cü ildə dünyanın hərbi-siyasi mənzərəsinin epoxal təsvirini verdikdən sonra diqqəti əsas mətləbə yönəldərək, iki yaşındakı Azərbaycan Xalq Cümhuriyyətini beşiyində boğan “şər səltənəti”nin (Ronald Reyqan) başqa qanlı cinayətlərinin ifşasına keçid alır:

*Çənli-dumanlı əsr 23 yaşında idi,*
*Qanlardan xilas olmaq əzmi başında idi!..*
*...Ancaq getmək bilmirdi ağrılı yaddaşlardan*
*Bolşevik daşnakların yurda tutduğu divan.*
*Hər evdə söz düşəndə Göyçədən, Zəngəzurdan,*
*Tayqulaq quldurların xalqa uddurduğu qan!..*

Ardınca yurdu bu durumdan qurtaracaq xilaskar dahinin doğulması müəllif tərəfindən qeyri-adi möcüzə və yerin-göyün arzuladığı yarıgerçək, yarımistik bir zərurət kimi tərənnüm olunur:

*Sirli-soraqlı əsr 23 yaşında idi,*
*Yurda xilaskar vermək əhdi başında idi!..*
*Naxçıvan səmasında gecələri bərq vurub,*
*Gərdişi ecazkar bir nur kütləsi gəzirdi.*
*Gah şığıyıb çəkilir, gah parlayırdı durub,*
*Görənlər mat qalırdı, görəsən bu nə sirdi?!..*

*Arzulu-kamlı əsr 23 yaşında idi,*
*Ərzə dahi bəxş etmək cəhdi başında idi!..*
*Dəymişdi bir-birinə mollalar, münəccimlər,*
*Biri söhbət salırdı Cavanşirdən, Babəkdən.*
*Gələcək xilaskardan verirmiş kimi xəbər,*
*Biri söz başlayırdı sonuncu Atabəydən!*

*Şanlı XX əsr 23 yaşında idi,*
*Dünyaya oğul vermək eşqi başında idi!..*
*Nəhayət, Nuhdan qalan şəhərin səmasında*

*Səyyar nur qeyb olanda, bildilər, yerə enib.*
*Bir övliya israrla dedi söz əsnasında:*
*"Yeni körpə doğulcaq o nur insana dönüb!"*
*Hamı heyrətdə idi Pirlər məhəlləsində,*
*Kəramət səslənəndə ilk bahar sonu idi!*
*Tanınmış dəmiryolçu ailəsində ilk dəfə*
*Dahi səsi gələndə düz mayın 10-u idi!!!* [3]

Əgər "Dahinin doğuluşu" örnəyi çağdaş şeirin bənd poetikasına gətirilən özünəməxsus yeniliklərlə diqqəti cəlb edirsə, Akif Azalpın Ulu Öndər obrazını canlandıran "Donanma" şeiri öz rəmzi-məcazi çalarları və ahənginin doğurduğu anımlarla oxucunu heyrətə salır. Belə ki, müəllif böyük ustalıqla şeirdə dilə gətirilən coğrafi adların məcazi qatlarına öz lirik qəhrəmanının xarici və daxili bədxahlarının cizgilərini, "Heydər Əliyev" və "Prezident Heydər Əliyev" gəmilərinin dünya sularında hərəkət sürətinə isə Ulu Öndərin ikinci dəfə xalqın tələbi ilə hakimiyyətə gəlişinin şiddətini və əzəmətini həkk eləyir:

*Ərzin ilk gəmisi qonan torpaqsan,*
*Nuhun qüdrətinin davamıdır bu!*
*Papağını dik qoy, hey Azərbaycan,*
*Milyon-milyonların bayramıdır bu!*

*Gəmisinin zili ərşə yüksəlir,*
*Ulu Öndər "Heydər Əliyev" gəlir!*

*Doğma Xəzərinin qoynunda tüğyan,*
*Bir yan Qara dəniz, bir yan Ağ dəniz.*
*Keçərək Baltikin tufanlarından,*
*Şimal sularında buraxdıqca iz,*

*Quduz dalğaları yararaq bir-bir,*
*"Prezident Heydər Əliyev" gəlir!*

*Çəkil, bəndərgahdan qalxan qara yel,*
*Gücənmə, Bosfordan qopan fırtına!*
*Yol ver, Cəbəltariq, yol ver, Dardanel,*
*Sülhün əzəmətin alıb sırtına,*

*Donanmanın zili göyləri dəlir,*
*İstiqlalın gəmi karvanı gəlir!* [4]

Akif Azalp poeziyasında Ulu Öndər obrazının özünəməxsus tərənnümünün bir əlamətdar cəhəti də ondan ibarətdir ki, şair bir sıra nümunələrdə bu obrazı Heydər Əliyevin ən yaxın silahdaşları və məsləkdaşları olan İlham Əliyevin və Mehriban Əliyevanın obrazları ilə bir yerdə və ayrılmaz vəhdətdə canlandırmağa nail ola bilir. Bu baxımdan xüsusən "İstiqlalnamə"nin proloqunda müəllifin doğma xalqın və azad yurdun keçmişinə, indisinə və gələcəyinə lirik müraciətləri və bədii xitabları həssas oxucu qəlbini qürur və iftixar hissinə qərq edir:

*Ey azad yurd, sən də böl sevincimi,*
*Üç sima, üç namə, üç cəngi kimi!*
*Yazım bayrağının üç rəngi kimi*
*Göyləri bəzər bu əfsanələri!*

Bəli, çağdaş Azərbaycanın uğurlu taleyində həlledici rol oynayan həmin üç misilsiz simanın və üç bənzərsiz şəxsiyyətin bir-biri ilə vəhdətdə tərənnüm olunması, eyni zamanda, onların obrazı ilə bağlı yeni-yeni poetik cizgilərin, təşbeh və istiarələrin yaranmasına təkan verir. Məsələn, "Zəfər nəğməsi" ("Zəfərnamə" silsiləsindən) şeirində müəllifin çağdaş Azərbaycanla yanaşı, onun müzəffər Prezidenti və Ali Baş Komandanını Ulu Öndərin şah əsəri kimi tərənnüm etməsi yuxarıdakı fikrimizin parlaq misalı və Akif Azalpın özünəməxsus poetik tapıntısı kimi diqqəti yaxından cəlb edir:

*Artıq əbədiyyətə "Qarabağ-Azərbaycan!"*
*Nidasın möhürlədi Öndərin şah əsəri!*
*İzn ver, ey bayrağım, iftixar səmasından*
*Sənin dalğalarınla çatdırım bir xəbəri:*

*İlhamla gələcəkdir bu yurdun hər zəfəri,*
*İlhamla güləcəkdir bu yurdun hər səhəri!* [4]

Yaxud Azərbaycanın birinci xanımı və Heydər Əliyev Fondunun prezidentini YUNESKO-nun Xoşməramlı səfiri kimi yüksək qürur hissi ilə tərənnüm edən və oxucuya da sonsuz iftixar duyğusu yaşadan "Nur yolçusu" ("Hüma" silsiləsindən) şeirinin aşağıdakı misralarında özünəməxsus bədii ifadə tərzinə, daha doğrusu, şairin mətləbə aid ən səciyyəvi cizgilərlə təsirli poetik lövhə yaratmaq məharətinə heyran qalmamaq olmur:

*Parisin həyəcandan dili gəlmir kəlməyə,*
*Yelisey meydanının köksünü qibtə yaxır.*
*Bu gün Odlar yurdunun yüksəldiyi zirvəyə*
*Eyfel qülləsi belə altdan yuxarı baxır.*

*Xoşməramlı səfiri alqışlamaqda cahan,*
*Səndəki bu vüsətə eşq olsun, Azərbaycan!*

Heydər Əliyevin ikinci dəfə xalqın tələbi ilə hakimiyyətə gəlişindən söz gedəndə Ulu Öndərin qanuni yolla və demokratik əsasda Azərbaycanın siyasi olimpinə doğru inamla irəliləməsində, təbir caizdirsə, "yaşıl işıq" rolunu oynayan Yeni Azərbaycan Partiyasının üzərindən sükutla keçmək qeyri-mümkündür. Şair YAP-ın 30 yaşına həsr olunmuş cəmi 18 misralıq "Müzəffər partiyam" ("Zəfərnamə" silsiləsindən) şeirində Ulu Öndər partiyasının yarandığı vaxtdan bu günə qədər keçdiyi keşməkeşli yolun böyük uğurlarını, eləcə də, doğma xalqımız və şanlı ordumuzla birliyi və həmrəyliyini yüksək bədii və xəlqi pafosla yoğuraraq, elə ustalıqla ümumiləşdirir ki, nəticədə bu yığcam şeir istər-istəməz oxucu nəzərində və təsəvvüründə qalib partiyanın yeni özünəməxsus himni kimi səslənir:

*Tarix səhnəsində qazandığın şan*
*Ucalıb hər zaman xalq arzusundan!*
*"Yeni Azərbaycan..." adından əyan,*
*Sən dövlət qurandan bir yadigarsan!*

*Öndər qüdrətinə şahid partiyam,*
*Monolit partiyam, vahid partiyam!*

*İlhamla üfüqlər aşdıqca bir-bir,*
*Yollara nur yağıb addımlarından!*
*Guşələr gül açıb Sülh ilə əlbir,*

*Mehriban qəlbinin yardımlarından!*

*İstiqlal yolunda sabit partiyam,*
*Monolit partiyam, vahid partiyam!*

*İşğala şərəflə son qoyulandan*
*Qürur coşur yurdun dörd bir yanından!*
*Sülh və birlik əzmi yüksəlir hər an*
*Müzəffər Ali Baş Komandanından!*
*Ey əsgər partiyam, zabit partiyam,*
*Monolit partiyam, vahid partiyam!* [4]

Akif Azalp yaradıcılığında Heydər Əliyev şəxsiyyəti və fəaliyyətinə ümumxalq məhəbbəti və sədaqətinin tərənnümü haqqında mülahizə yürüdəndə şairin məşhur "Nehrəm salnaməsi" ("Öndərnamə" silsiləsindən) şeirini diqqətdən kənarda saxlamaq çox çətindir. Belə ki, bu şeirdə qədirbilən insanların öz böyük liderinə sonsuz məhəbbəti və sədaqəti bütövlükdə Azərbaycan xalqının sarsılmaz münasibəti kimi ümumiləşdirilir. Bunu yaxından müşahidə etmək üçün şeirin birinci və sonuncu bəndlərinə dərindən diqqət yetirmək kifayətdir:

*Kreml qəzəbdə qısqırdır şəri,*
*Qəhrəman büstünə əl qaldırmağa.*
*Bir kənd yuxu bilmir günlərdən bəri,*
*Böyüklü-kiçikli qalxıb ayağa.*

*Hürriyyətlə həmdəm, haqq ilə məhrəm,*
*Qeyrət salnaməsin yazmaqda Nehrəm!*

*İrəli, Günəşə üz tutan kütlə,*
*Yüksəlmək eşqi bir amaldır sənə.*
*Bu sarsılmaz birlik, bu şücaətlə*
*Göylərin alqışı halaldır sənə!*

*Hürriyyətlə həmdəm, haqq ilə məhrəm,*
*Qeyrət salnaməsin yazmaqda Nehrəm!* [4]

"İstiqlalnamə" trilogiyasına daxil olan silsilələrdən ("Öndərnamə", "Zəfərnamə", "Hüma") hər biri öz-özlüyündə poetik məndəricə baxımından yığcam və orijinal poema təsiri də bağışlayır. Müəllifin yeni dövr və müasir oxucu tələblərinə uyğun olaraq, böyük həcmli poemalardan daha çox sözügedən mövzularda onları əvəzləyən oxunaqlı yığcam silsilələrə üstünlük verməsi çox cəhətdən özünü doğruldur. Bu açıq poetik silsilələrdən hər birinin qapalı poema məndəricəsindən fərqli və özünəməxsus bir özəlliyi də ondan ibarətdir ki, onlardan hər birinə istənilən vaxt Azərbaycanın sözügedən böyük şəxsiyyətlərinin adı ilə bağlı başqa uğurlarının tərənnümünə dair yeni bədii örnəklər də əlavə etmək olar.

Ancaq Akif Azalp yaradıcılığında Ulu Öndər obrazının bütövlükdə təcəssümü yalnız həmin silsilələrlə məhdudlaşmır. Şairin ən müxtəlif mövzulardakı çoxsaylı şeirlərində və irihəcmli əsərlərində ("Nuhçıxan", "Olimp", "Qaçqın", "44:0", "Kaman" poemaları, "Mələklərin eşqi", "Cənnət çiçəyi" mənzum dramları və s.) Heydər Əliyev bədii portretinin ayrı-ayrı əlamətdar cizgiləri öz orijinallığı və xəlqi ifadə tərzi ilə seçilir. Məsələn, 2020-ci ildə böyük qələbəmiz şərəfinə Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən elan olunmuş respublika müsabiqəsinin qalibi kimi Akif Azalpın "Şəhid öygüsü" şeirinin aşağıdakı bəndinə diqqət yetirək:

*Bu vətən yavrusunun əfsanədə yoxdu tayı,*
*Şan yazır, yer o yana, göydə könüllər yaxaraq!*
*Zəfərində yenə "Ya Heydəri-kərrə!" harayı,*
*Yıxılır, köksünə bir bayrağı bərk-bərk sıxaraq!*

Göründüyü kimi, hətta əruz vəznində yazılmış şeirində müəllif mövzu ilə əlaqədar, yeri gəlmişkən, xalq arasında yayğın bir ifadədən məharətlə istifadə edərək Ulu Öndərin adını və qalibiyyət əzmini şəhidlərin müqəddəs and yeri və qazilərin güc-qüdrət mənbəyi kimi nəzmə çəkir.

Yaxud götürək şairin öz böyük ustdadları Əhməd Cavadla Səməd Vurğunun eyni adlı şeirləri ilə eyni ölçüdə, səkkizlik gəraylı üstündə yazıldığı üçün də onlara ithaf edilən və özünəməxsus bənd poetikası ilə seçilən məşhur "Azərbaycan" şeirini! Ədəbiyyatın mühüm tarixilik prinsipi baxımından əgər Əhməd Cavadın "Azərbaycan"ı Cümhuriyyət dövrünün, Səməd Vurğunun "Azərbaycan"ı sovet zamanının tarixi izlərini əks etdirirsə, Akif Azalpın "Azərbaycan"ı, hər şeydən öncə, Müstəqillik dönəminin təmayül və simvollarını bədiiləşdirir. Beş bəndlik şeirin, xüsusən, axırıncı iki bəndində həmin poetik vüsətin özünəməxsus cazibəsi həssas oxucuya dərin qürur hissi və unudulmaz təəssürat yaşadır:

*Şəhidlərin amanatın*
*Həkk etdikcə qızıl səsə,*
*Aram bilmir bir bayatın,*
*Qitələri gəzə-gəzə.*
*Hələ barın çox verəcək*
*Xilaskardan qalan iqbal.*
*Qanadların çox gərəcək*
*Xəzər üstə bala qartal.*
*Nəsilləri titrədən şan,*
*Azərbaycan, Azərbaycan!*

*Mehriban yurd, başlar çağda*
*Bakı-Ceyhan salnaməsi,*
*Qəsr-qəsr gül açmaqda*
*Ulu Öndər əfsanəsi!*
*Himnin zəfər səmasında*
*İlhamınla coşur məğrur!*
*Nəhənglərin sırasında*
*Bayrağınla qurur duyur*
*Əlli milyon mərdi-meydan,*
*Azərbaycan, Azərbaycan!* [4]

Bir sözlə, yuxarıda adıçəkilən və təhlilə cəlb olunan poetik nümunələr Akif Azalp yaradıcılığının ana xəttini məhz şairin vətənpərvərlik lirikası təşkil etdiyini bir daha nümayiş etdirir.

Azərbaycan və özbək dillərində yazılmış sanballı şeirləri və irihəcmli əsərləri, eləcə də, gözəl tərcümələri və tədqiqatları ilə çoxsaylı bədii və elmi uğurlara imza atmış Akif Azalp əsla təsadüfi deyildir ki, uzun illər ərzində öz istedadı ilə, bir tərəfdən, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Məmməd Araz, Xəlil Rza Ulutürk, Fikrət Qoca, Anar, Sabir Rüstəmxanlı, Vahid Əziz, digər tərəfdən, Azad Şərafəddin, Abdulla Arif, Rauf Pərfi, Camal Kamal, Şükür Xalmirzə, Aman Mətcan, Osman Əzim, Siracəddin Səyyid kimi görkəmli sənətkarların diqqətini çəkmişdir, onun yaradıcığına dair və öz iştirakı ilə hər iki ölkədə bir neçə sənədli telefilm yaradılmışdır.

Burada, yeri gəlmişkən, uzun illərdən bəri "Azərbaycan ədəbiyyatının Özbəkistandakı və özbək ədəbiyyatının Azərbaycandakı səfiri" (Anar) haqqında onun ana dilindəki ilk kitabına yazdığı "Ön söz"dən böyük şairimiz Fikrət Qocanın aşağıdakı qiymətini vurğulamaq məqsədəuyğundur:

“Akif Azalpın “Turan havası” kitabı qarşımdadır. O, Özbəkistanda yaşayan, özbək türkcəsində yazan azərbaycanlı şairdir. Ana dilindəki şeirlərini oxuyandan sonra Azərbaycanın istedadlı şairlərindən biridir, fikrini əlavə etməyi özümə borc bildim:

*Dəhşətlərə artıq dözə bilmirəm,*
*Sitəmləri bir də yaza bilmirəm,*
*Qan içində daha üzə bilmirəm,*
*Çıxart məni gedər-gəlməz yoluna!*

Akifin “Çıxart məni gedər-gəlməz yoluna!” şeirindən misal gətirdiyim bu dörd misra şeirin ən yaxşı bəndi deyil. Ən yaxşı misraları, şeirləri misal gətirmək üçün gərək kitabın bir çox şeirlərini lakoniklik tələb olunan bu ön sözə köçürəm. Kitabı oxuyanda mənim haqlı olduğuma özünüz inanacaqsınız” [5].

## Nəticə / *Conclusion*

Sərlövhəsindən də göründüyü kimi, bu məqaləmizdə əsas məqsəd gələn il 70 yaşı tamam olan və haqqında hələ ciddi tədqiqatlar yazılacaq Akif Azalp yaradıcılığında ilk növbədə Ulu Öndər obrazının parlaq poetik təzahürünü çağdaş ədəbi tənqidin, xüsusən, öndərşünaslığın diqqət mərkəzinə çəkmək idi. Aidiyyəti olan qurumların və xeyirxah insanların dəstəyi ilə görkəmli şairin uzun müddətdən bəri üst-üstə yığılan kitablarının, xüsusən, “İstiqlalnamə” (“Öndərnamə”, “Zəfərnamə” və “Hüma” silsilələri) trilogiyasının işıq üzü görməsinin bu mübarək “Heydər Əliyev İli”nin Azərbaycan oxucularına qiymətli töhfəsi olacağına ürəkdən inanırıq.

## Ədəbiyyat / *References*


1. Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibəti ilə Azərbaycan xalqına müraciəti. 10 may 2023-cü il.
2. Azalp, A. Şeirlər. “Ədəbiyyat qəzeti”. 28 may 2022.
3. Azalp, A. Şeirlər. “Naxçıvan” qəzeti, 9 may 2009.
4. Azalp, A. Zəfər nəğməsi. “Mədəniyyət” jurnalı, 2021, №6.
5. Qoca, F. Akif Azalpın “Turan havası” kitabına ön söz. – Bakı: Vətən, 2006.


# О воплощении образа великого лидера в современной поэзии


**Яшар Гасымбейли**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: yashargasimov@mail.ru



**Резюме.** В статье говорится о воплощении образа основателя нового Азербайджана, великого государственного деятеля Гейдара Алиева. Основную тему статьи составляет тема защиты азербайджанским народом своей независимости и суверенности, а также заслуг великого лидера в результате титанической деятельности в творчестве талантливого поэта Акифа Азалпа за последние 30 лет. В центре внимания известного поэта особо стоят основные этапы борьбы и страницы жизни великого лидера. Творческие поиски ещё с начала 90-х годов в вызвавшем резонанс стихотворении «Глас спасения», успешно продолжились в циклах «Книга о Лидере», «Книга победы», «Хума». Художественно-эстетический поиск воплощения великого лидера и сегодня продолжается с большим вдохновением.

**Ключевые слова:** образ великого лидера в современной поэзии, Гейдар Алиев и новый Азербайджан, «Глас спасения», «Рождение гения», «Книга о Лидере», «Книга победы», «Хума»